MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 78**
**ORCID: 0000-0003-0369-6886**
**https://doi.org/10.52094/TAVU6813**

**Könül Şükürova Arif qızı**
**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Dissertant**
**konularif@gmail.com**

# AZƏRBAYCAN MAHNI JANRININ MÜSTƏQİLLİK DÖVRÜNDƏKİ STANDARTLARINA DAİR: "NOVRUZ GƏLİB"

**Xülasə:** Bu araşdırma işində Azərbaycan mahnı irsinin ötən əsrə düşən tarixinin sonu, müstəqillik dövrünün başlanğıcında estradamızdakı yeni cərəyanlar, mövzular və üslubların bərqərar olmasında müstəsna rol oynamış, estrada janrının sonrakı inkişafına və istiqamətinə yön vermiş ən məşhur parçalardan biri, Cavanşir Quliyev və Ramiz Rövşən qələminə aid, milli mənəvi rəmzlərimizi ən uğurlu şəkildə təmsil edən "Novruz gəlib" mahnısı təhlil edilir. Bu nümunənin tək yaranış tarixi, musiqi məziyyətləri və bədii keyfiyyətləri deyil, həmçinin milli-mənəvi şüura təsiri, dövrünün ictimai-siyasi prosesləri ilə həmahəngliyi, cəmiyyətdəki rezonansı və bütün sonrakı onilliklərə, növbəti nəsillərin sosial-mədəni həyatına təsiri gözdən keçirilir.

Həmçinin bu nəğmənin forma və məzmun özəllikləri, müəllifi Cavanşir Quliyevin mahnı formasında ötən əsrin 70-ci illərindən başlayan fəaliyyətinin məntiqi davamı kimi qiymətləndirilir. Bu nəğmənin nümunəsində 90-cı illərdə müstəqilliyinə qovuşan xalqın milli estradasında sovet ideologiyası ilə yasaq edilən Novruz mövzusunun populyar mədəniyyətə uğurla qayıdışından bəhs olunur. Mahnının uğurunda onun əsas ifaçısı Aygün Kazımova faktoru və onun şəxsi, həmçinin ifaçılıq keyfiyyətlərinin rolu təhlil olunur.

**Açar sözlər:** Cavanşir Quliyev, Novruz, mahnı, teatr, Aygün Kazımova

Mahnı janrımızın XX əsrə düşən tarixi maraqlı təkamül yolu ilə getdi. Məmləkətin ictimai-siyasi prosesləri birmənalı olaraq onun mədəni dəyərlərinə, xüsusilə də ən əsas təbliğat maşını olan mahnı janrına təsirsiz ötüşmədi. Sovet dövrünə, yəni 70 illik zaman kəsiyinə aid nümunələr sözsüz ki, imperiyanın maraqlarına və ideoloji mesajlarına cavab verməli idi və verirdi də. Lakin ötən

əsrin sonuna doğru, daha dəqiq 80-ci illərin 2-ci yarısından etibarən istimai şüurda baş verən proseslər fonunda milli estradamızın məzmun və forma transformasiyası başladı. Məhz o zaman meydanda gənc, istedadlı, milli düşüncəli və protest ruhlu müəllifləri, janrları və nümunələri görməyə başladıq. Yeni mövzular, soy kökümüzü, keçmişimizi, ənələrimizi təbliğ edən, yaddaşımızı təzələyən motivlər estradaya gəlməyə başladı. O sırada Cavanşir Quliyev imzası xüsusilə parlaq oldu. Çünki hələ 70-ci illərin sonunda estradaya gəlişi ilə mahnı qəliblərimizi öz yanaşması, mövzu və üslub yenilikləri ilə genişləndirmişdi. Odur ki, 80-ci illərin sonuna doğru, ölkənin siyasi ictimai prosesləri fonunda C.Quliyev qələmi daha da cilallandı, vətən, yurd, türkçülük və milli ənənələr daha da vüsət aldı. Məhz o zaman müəllif 2 onillik ərzində kölgədə qalan 1 mövzunu, Novruz mövzunu qələmə aldı.

Onun yarandığı və efirlərə vəsiqə aldığı dövrü göz önünə gətirsək, bu mövzunun məhdudiyyətlər hətta yasaqların mövcud olduğu bir dövrdə inqilabi əhəmiyyətini inkar etmək olmaz. Ümumiyyətlə Cavanşir Quliyev yaradıcılığının istər akademik musiqidə, istər kino və teatr janrında və ya estrada musiqisində daim cəsarətli addımlarla müşaiət olunduğunu nəzərə alsaq, bu nəğmə o xəttin ən parlaq təzahürlərindən biri kimi də qiymətləndirilə bilər.

Əslində "Novruz gəlib" nəğməsi sadəcə novruz mövzusunda yazılmış nəğmə deyil. Bu mövzuya yaxından nəzər salmaq üçün mahnının yaranma dövrünə, səbəblərinə və köklərinə getmək, həmçinin onun yarandığı dövrlə əlaqəsini gözdən keçirmək lazımdır.

Qeyd etdiyimiz kimi, bu musiqi nümunəsi ötən əsrin 80-ci illərinin ortalarında yaranıb. Tariximizin çox da uzaq olmayan o kəsiyi əslində sovet siyasi ideoloji maşınının gedikcə iflasa uğradığı, ittifaqın hər yerində olduğu kimi ölkəmizdə də sosial, mədəni, xüsusilə ictimai-siyasi böhranın üfüqdə getdikcə daha aydın sezildiyi dövr idi. 70 il dosluq, qardaşlıq şüarları ilə pərdələnən, xoşbəxt gələcək vəd edən imperiyanın saxta ideologiyası çöküşünü yaşayırdı. Məhz belə bir zamanda məmləkətin ziyalı zümrəsi, xüsusilə də gəncləri yaradıcılığının, potensialının ən güclü, ən kreativ tərəflərini meydana qoymaq, "qardaş respublikalar"la müqayisədə heç də zəif olmadıqlarını, hətta mədəni kodlara, köklərə və dəyərlərə sahib olduqlarını bacardıqca parlaq şəkildə sərgiləmək əzmində idilər. Məhz belə bir zamanda o musiqi və onun aid olduğu tamaşa yarandı.

Söhbət Azərbaycan dramaturgiyasının banisi, nəsr tariximizin klassiki Mirzə Fətəli Axundovun 1850-ci ildə qələmə aldığı “Hekayəti müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükuni məşhur” əsərindən gedir. Əslində o əsərin özünün də yaranma səbəbləri var. Sirr deyil ki, bu əsər 19-cu əsrdə Qafqaza və Qarabağa səyahət etmiş gerçək tarixi personaj, Aleksis Jordan adlı fransız səyyah və təbiətşünasın prototipi üzərində Axundovun bədii təxəyyülü ilə yaranmış, özü də Azərbaycan realist ədəbiyyatının ən parlaq, ən məşhur əsərlərdən və milli dramoturgiya tariximizin şah nümunələrindəndir. Təsadüfi deyil ki, hələ 19-cu əsrdə yazıldığı dövrdə bu əsər, artıq Peterburq, Tiflis, Naxçıvan teatrlarında səhnəyə qoyulmuşdur. Axundovun 6 komediyası sırasında müstəsna yerdə dayanan bu əsər, XX əsr milli teatr və kino tariximizdə də özünün həm səhnə, həm ekran həllini qazandı. Bu əsərin tarixindəki ən unikal faktlardan biri və haqqında danışdığımız nəğmə ilə energetik bağı olan məsələ odur ki, 1886-cı ildə Tiflis Aleksandrovski müəllimlər institutunun son kurs tələbələri Həbib Bəy Mahmudbəyov (1864-1928), Sultan Məcid Qənizadə (1886-1937) və Nəcəfqulu Vəliyev Mirzə Fətəlinin "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasını hazırlayarkən o tamaşada istedadlı gənclərlə bir səhnədə Şahbaz bəy rolunu milli realistik aktyor məktəbinin banisi Cahangir Zeynalov ifa edirdi.

O hadisədən düz 100 il sonra, 1986-cı ildə yenidən Axundovun bu məşhur əsərini səhnədə görürdük. Bu dəfə isə tamaşa C.Zeynalovun nəvəsi Cahangir Novruzovun adı ilə bağlıdır. Məsələ ondanır ki, 1986-cı ildə S. Rəhman adına Şəki dram teatrının 32 yaşlı rejissoru Cahangir Novruzov həmin əsərin dövrü üçün tamamilə yeni, inqilabi təfsirini yaradır. Komediyanın klassik çərçivələrini dağıdaraq ortaya həm meydan tamaşaları, həm məzhəkə və nəhayət müzikl janrının sintezindən yaranan yeni forma çlxarır. Həmin müziklin musiqisini, Cövdət Hacıyev məktəbinin istedadlı yetirməsi, yaradıcılığı XX əsrin son onilliklərindən başlayan və sazı, zuranı, milli alətləri həm estradaya, həm akademik musiqisiyə cəsarətlə gətirən Cavanşir Quliyev yazır. Yeri gəlmişkən, tamaşanın ssenarisi və mahnıların mətnləri poeziyamızın romantiki, yazıçı-ssenarist Ramiz Rövşənə məxsusdur. Bir sözlə, haqqında bəhs edilən mahnı, məhz həmin tamaşa üçün yazılmışdır.

Qəribədir ki, tamaşaya yazılan saysız hesabsız musiqi parçaları içərisində yalnız 1 nəğmə özünün parlaq inkişafını tapdı və sonrakı onilliklərdə kütləviləşə və məşhurlaşa bildi. O nəğmə artıq 4-cü onillikdir ki, estradamızda və mahnı

tariximizdə Novruz motivlərinə yazılmış ən uğurlu nəğmə kimi zirvədəki yerini heç kəsə vermir. Özü də həm Sovet siyasi senzurasının onillərlə yasaq etdiyi milli dəyər, "Novruz" mövzusuna toxunduğu üçün deyil, həm də sırf peşəkar göstəricilərinə görə. Bu nəğmə yeni dövrün musiqisi, müstəqillik dövrünün, azadlıq və istiqlal çağırışları ilə oyanan insanların milli təəssübünün rəmzi ifadəsi idi. İstənilən incəsənət əsərini isə məhz dövrünün məhsulu kimi təhlil etmək və o əsərin yaranma səbəblərinin izlərini də yarandığı tarixdə axtarmaq və tapmaq olar.

Qısası, məqsədimiz 1986-cı ildə "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasına yazılan, lakin estrada tariximizə Aygün Kazımovanın ifasıyla daxil olan, ən əsası dövlətimizin müstəqillik tarixi ilə həmyaşıd olan "Novruz gəlib" mahnısının əhəmiyyəti və o mahnının timsalında mahnı tariximizə gələn yeni təmayülləri izləmək, həmçinin o maraqlı tarixə nəzər salmaqdır.

1987-ci il Mirzə Fətəli Axundovun 175 yaşı respublika səviyyəsində qeyd edilirdi. Bu festivala respublikanın teatr kollektivləri qoşularaq, dramoturqun əsərlərinə müraciət edirlər. Məhz o zaman Cahangir Novruzov 19-cu əsrin bu klassik əsərini əsil Şəki yumoru ilə yeni, müasir, hətta inqilabi formada təqdim edir. Bu, dövrü üçün əsil kultural hadisə idi. Rejissor əsərə yeni status verərək onu "Deməli-gülməli, yarı zarafat - yarı gerçək, 2 hissəli həngamə" adlandırdı. Bu, həqiqətən maraqlı fəqrli format idi və təsadüfi deyil ki, həmin il Axundov festivalının qalibləri də məhz bu tamaşa ilə Şəki teatrı olur.

Əslində gənc rejissorun gətirdiyi əsas yenilik tamaşanın üslubu ilə bağlı idi. Rejissor onu müzikl janrına yaxınlaşdıraraq, milli məzhəkəyə çevirmək istəyirdi. Bunun üçün isə onun yanında peşəkar bəstəkar olmalı idi. Özü də sadəcə bəstəkar yox, həm də müasir düşüncəli, eksperimentlərə açıq olan, populyar musiqidəki tendensiyaları bilən bəstəkar. Bu isə əslən Şəkili, özünəməxsus üslubu, musiqi dili, istedadı ilə seçilən 36 yaşlı Cavanşir Quliyev idi. O vaxtadək bu 2 müəllif Ramiz Rövəşnin "Dərs", yazıçı Anarın "Şəhərin yay günləri", Axundovun "Xırs quldur basan" əsərlərində bərabər çalışmışdırlar. O səbəbdən Cahangir Novruzov dəqiq bilirdi ki, bu müziklın öhdəsində C. Quliyev gələ bilər. Beləcə tamaşanın musiqisini yazmaq üçün Cavanşir Quliyev bu maraqlı, əyləncəli, son dərəcə məzəli layihənin 1 parçasına çevrilir.

Rejissor bəstəkardan bütün personajlar üçün ayrıca mahnı, musiqi parçası, leytmotiv istəyir. Nəticədə C. Quiyev tamaşaya 17 vokal və 10-a yaxın instrumental musiqi yazır. Bu nəğmələr Axundov personajlarının, Hətəmxan

ağa, Şərəbanu, Şərəfnisə, Jordan ağa, Şahbaz və digərlərinin individual musiqisinə çevrilərək o obrazları müşayət edir.

Bəstəkarın tamaşaya gətirdiyi əsas inqilabi addım oradakı mahnıların üslubu idi. Yəni nəğmələrdə milli elementlər, xalq intonasiyaları, xüsusilə bəstəkarın sevimli aləti saz olsa da, janr etibarilə həmin nəğmələr rok, tanqo, fank və s qərb formaları üzərində yazılmışdır. Bu həqiqətən dövrü üçün həm cəsarətli addım, həm də yaradıcı tapıntı idi. Tamaşanı keçəl və kosa personajları idarə edirdi. Elə mahnıları da əsasən keçəl və kosa oxuyurdular. “Novruz gəlib” mahnısı isə tamaşanı ümumiyyətlə açırdı. Bununla da bütün əhvalatın Novruz ovqatına, bayram ruhuna köklǝndiyini göstərirdi.

Yeri gəlmişkən, nəğmələrin musiqi dili ilə yanaşı poetik mətnləri də son dərəcə orijinal və eksperimental alındı. Şairin bu maraqlı prosesə qoşulması isə rejissorun təkidi ilə baş verir. Ramiz Rövşən tamaşanın ruhunu tutaraq peronajlara satirik, eyhamlı mətnlər yazır. “Novruz gəlib” mahnısının mətni əsil bayram ovqatlı və son dərəcə sadə, anlaşıqlı, xalq dilində alınır.

Novruz gəlib, yaz gəlib,
Bir əlində saz gəlib.
Bir əlində xonçası,
Açıb gülün qönçəsi.
Bülbülə avaz gəlib.
Novruz gəlib, yaz gəlib.
Kosa, sən də gəlsənə,
Gəlib salam versənə.
O torbanı ver görək,
Yumurtalar rəngbərəng.
Hər biri can dərmanı,
Ver dolduraq torbanı.
Novruza bax, yaza bax,
O əriyən buza bax.

Sellər axır şırhaşır,
Çöllər olub yamyaşıl.
Ot bitir,yemlik bitir,
Keçəl başa tük bitir.
Keçəl başın yağlasın,
Dəsmal verək bağlasın.
Məclis qurub oynasın,
Çırtdıq vuraq oynasın,
Əl çalaq alqışlayaq,
Bu məclisi başlayaq.

Görünrüyü kimi, mahnının poetik mətni sadə, yadda qalan, hətta heca sayına görə bayatı janrına yaxın bir nümunədir. Şifahi xalq yaradıcılığına yaxınlığı da bu mətnin uğurunu təmin edən amil idi.

O ki, qaldı mahnının musiqisinə, Cavanşir Quliyev yallı ritmləri üzərində, şur məqamı əsasında, aşıq musiqisi ruhunda milli, sadə və yaddaqalan 2 musiqi ifadəsi üzərində qurur melodiyanı. Re minor tonallığında yazılan nəğmənin forması sadə kvadrat period formasındadnır. 1-ci periodun melodiyası kvinta intervalı ilə başlayan ilk cümlədən və 1 pillə aşağıya sekvensiya ilə təkrarlanıb tonikada bitən 2-ci cümlədən təşkil olunub. 2-ci period isə mahnının nəqəratıdır və tonikanı bərqərar edən sadə, bitkin və 2 dəfə təkrarlanan motivdir. Bəstəkar bu parçanı tamaşanın, el şənliyinin əsas motivinə çevirir və digər eksperimental mahnılardan fərqli olaraq tamamilə milli forma və məzmunla yaradır.

39

# *Novruz gəlib.*

*Mirzə Fətəli Axundovun*
*"Müsyö Jordan və dərviş Məstəli Şah" tamaşasından.*
*Şəki teatrı 1986*

Sözləri Ramiz RÖVŞƏNİNDİR




© Cavanşir Quliyev Seçilmiş mahnılar - Javanshir Guliyev Selected songs

**MƏDƏNİYYƏT DÜNYASI**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025**
**МИР КУЛЬТУРЫ**
**Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025**
**THE WORLD OF CULTURE**
**Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025**






O zaman tamaşaya yazılan mahnılar Bakıda lentə yazılır və o nəğmələri Cavanşir Quliyev, Bəsti Bəkirova və Cahangir Novruzov şəxsən ifa edirlər. "Novruz gəlib" mahnısını Cavanşir Quliyev özü ifa edəsi olur. Bununla da mahnının tarixindəki ilk ifaçı müəllif özü olur.

Bu tamaşa Cahangir Novruzovun ən masştablı, ən parlaq işlərindən biri kimi tarixə düşdü. Təsadüfi deyil ki, uzun illər Türkiyənin Adana şəhərində çalışan rejissor, bu şəhərin teatr səhnəsində də "Müsyö Jordan və dərviş Məstəli şah" əsərini səhnələşdirərkən, C. Quliyevin tamaşaya yazdığı nəğmələrin bir daha Türkiyə səhnədən intibahı baş verdi.

Bütün yaradıcılığının kvintessensiyası milli təəssüb, vətən və yurd, tariximiz və köklərimiz, türkçülük ideyası olan C. Quliyevin istər kiçik, istər iri həcmli əsərlərində ötürmək istədiyi əsas mesaj xalqın identikliyi, özünü dərk və soy kökümüzə qayıdış oldu. "Kitabi Dədə Qorqud" və "Oğuznamə" baletləri, simli orkestr üçün dastan simfoniya, fleyta, saz və violançel üçün "Karvan", saz və viola üçün sonata, zurna və orkestr üçün uvertüra. Bütün bu nümunələr, adlar, bu məfhumlar əsərlərin mahiyyətinə, mövzusuna təsadüfən çevrilməmişdilər. Müasir, avanqard və yeni formalarda öz dilimiz və öz identikliyimizlə danışır Cavanşir Quliyev. Odur ki, sovetlərin dağılmasına azca qalmış Axundov əsərinin dili ilə müəlliflər artıq dağılmaqda olan imperiyanın qardaşlıq ideyalarına, saxta ideallarına istehza ilə gülürdülər.

Təsadüfi deyil ki, o tamaşadan cəmi 1 il sonra bütün Qafqazı cənginə alan konfliktlər, qonşularımızın torpaq iddiaları həyatımızın reallığına çevrildi. Halbuki bütün bunlar hələ 1986-cı ildə Jordan ağanın dili ilə tamaşada ifadə edilirdi. Fransadan Qarabağa gəlmiş Jordan ağa bu torpaqlara tamah salaraq özü

ilə aparmaq istəyini mahnısında oxuyurdu. Bu, intuisiya idimi, yoxsa Axundov da başda olmaqla müəlliflər gələcəkdəki fəlakətləri fəhmlə duymuş və zamanı qabaqlamışdılar? Çünki elə təxminən o dövrdə dünya siyasiətində də, sovet imperiyasında da qarabağ kartı artıq oynanılmağa başlamışdı.

1986-cı ildə Şəkidəki premyerasının ardıyca Bakıda, hətta Daşkənd və Moskva tamaşaçılarının qarşısında uğurla nümayiş olunan, 1987-ci il Axundov festivalının da qalibi olan tamaşa, 90-cı illərdən sonra nə teatr səhnələrində, nə də efirdə nümayiş olunmadı və demək olar ki, Azərbaycan teatrının tarixinə çevrildi.

Təəssüf ki, tamaşalara yazılan musiqi nümunələrini kino musiqsindən fərqli olaraq geniş auditoriya tanımır, onlar da yalnız tamaşada səslənib teatr divarları arasında qalırlar. Əgər həmin nümunələrin taleyində qeyri-adi hadisə baş verməzsə, müəllif özü nəğməsini təbliğ etməzsə həmin nəğmələrin taleyi qabaqcadan bəllidir. Bu mənada “Müsyö Jordan və dərviş Məstəli şah” tamaşasındakı bütün musiqi parçaları kimi “Novruz gəlib” nəğməsi də məşhurlaşmaz, biz də onu tanımazdıq, əgər C.Quliyev onu 1989-cu ildə “Bakı payızı” müsabiqəsinin qalibi, peşəkar səhnədə ilk kövrək addımlarını atan 19 yaşlı Aygün Kazımovaya şəxsən təqdim etməsəydi. Bununla da bəstəkar mahnısının bütün gələcək taleyini həll etdi.

O nəğmənin 1989-cu ildə Dövlət televiziyası ilə yayımlanan Novruz şənliyində səslənməsi Azərbaycan televiziyasının o zamankı rəhbərliyinin təşəbbüsündən və ətrafındakı insanlarının iştirakından keçir.

Bəllidir ki, 1989-cu il Azərbaycan ictimai-siyasi tarixinin ziddiyyətli dövrü idi, ölkənin siyasi mənzərəsi son dərəcə qarışıq idi. Qafqazda konflikt ocaqları gərginləşmiş, həm Qərbi Azərbaycandan soydaşlarımız qovulmuş, həm Qarabağ problemi dərinləşmişdir. İctimai-siyasi və sosial böhran fonunda xalqın ziyalı zümrəsinin milli heysiyyatı oyanmaqda idi. Hiss olunurdu ki, böyük bir imperiya kökündən laxlayır. Təsadüfi deyil ki, uzun illərdən sonrta ilk dəfə Dövlət televiziyasında Novruz şənliyinin təntənəli keçirilməsi ideyası da məhz o zaman yaranır. Bu, millətin özünə, ənənələrinə, dəyərlərinə, milli bayramına qayıdışı idi. Baxmayaraq ki, bu addımın televiziya işçiləri ehtiyyatla atır və mərkəzdən, Moskvadan bunun bir cəzasının olacağını güman edirdilər. Bununla belə həmin layihə milli televiziya tarixində, 1967-ci il Şıxəli Qurbanovun adı ilə tarixə düşən təntənəli, kütləvi və möhtəşəm Novruz şənliyindən sonra Sovet rejimində 2-ci kütləvi el bayramı kimi həm yaddaşlarda və tariximizdə qaldı.

O konserti reallaşdıran heyyətin əsas üzvləri, rejissor Arif Fərəczadə və ssenari müəllifi Nadir Axundov 1989-cu il Novruz şənliyini, həmin ilin mart ayında bütün bölgələrdən Bakıya “1-ci Respublika Bədii Özfəaliyyət kollektivlərinin festivalı”nın yekun konsertinə gələn kollektivlərin ifaları üzərində qururlar. Beləcə konsertin müəllifləri İçəri şəhərdəki qədim karvansarayda bu kollektivləri toplayaraq o musiqi nömrələrini lentə alırlar.

Lakin o çəkilişdən bir neçə gün öncə Nadir Axundov konsertin ifaçılarını və repertuarını müəyyənləşdirərkən, musiqiçilərdən, bəstəkar dostlarından, o cümlədən, Cavanşir Quliyevdən də Novruzla bağlı mahnılar istəyir. Məhz o zaman bəstəkar 3 il öncə tamaşa üçün yazdığı “Novruz gəlib” mahnısını xatırlayır. Lakin tamaşadakı fonoqramı, yəni öz səsini istifadə etmək istəməyən bəstəkar, mahnını Aygün Kazımovanın ifasında təqdim etmək qərarına gəlir.

Əslində o zaman peşəkar səhnədə yeni olan, öz repertuarını yaratmağa çalışan və dövrün bəstəkarlarından, o cümlədən C. Quliyevdən mahnı istəyən A. Kazımova da bu nəğmə üçün çox uğurlu seçim idi. Sanki bütün təsadüflər eyni nöqtədə kəsişir. Beləcə 1987-ci ildə tamaşa üçün yazılan nəğmənin 1989-cu ilin Novruz şənliyində tarixi anı, daha dəqiq desək, intibahı baş verir.

Həmin axşam ekran qarşısında ölkənin yeganə televiziyasının praym taymında, Novruz şənliyini izləyən milyonlarla tamaşaçı o konsertin təsirinə düşür. Böyük iştirakçı heyyəti, məşhur sənətkarlar, musiqiçilər, kollektivlər, fərqli folklor ansamblları, İçəri şəhərdəki bu qədim karvansarayda, “Muğam teatrı”nın autentik atmosferində möcüzəli şərq nağıllarını xatırladırdı. Novruz atributları ilə zəngin olan həmin el şənliyi televiziya tariximizin ən parlaq hadisəsi kimi yadda qaldı. Xüsusilə də həmin konsertdə, şıltaq obrazı, parlaq libası, saçlarındakı, gül çələngi, səmənisi, dövrü üçün müasir estetikası ilə əsil novruz qızını xatırladan gənc və yaraşıqlı A.Kazımovanı da, bu mahnını da tamaşaçılar o axşam sadəcə kəşf edir.

Mübaliğəsiz bu performans o axşam partlayış effekti yaradaraq konsertin kuliminasiyası oldu. Təsadüfi deyil ki, həmin Novruz şənliyinin bu günədək ən yaddaqalan ifası və fraqmenti də məhz A.Kazımovanın ifası və bu nəğmə oldu.

Azərbaycan estradasında yaraşıqlı, fəqli, özünəməxsus obrazı ilə tamaşaçısını hələ “Bakı payızı”ndakı ifası ilə qazanan Aygün Kazımova heç şübhəsiz ki, o dövrün estradasında da, mədəni düşüncəsində də əsil hadisə idi. Yeniyetmə qızların, gənclərin kumiri, estradamızda öz cığırını, yolunu yaradan və heç kəsi təkrarlamayan bu cəsarətli xanım, o axşam, özü də fərqinə varmadan

milyonların qəlbini fəth edirdi. Səmimi, xoş təbəssümü, sərbəstliyi ilə müasir, yeni, dəyişən, ziddiyyətli dövrün fenomeninə çevrilirdi. Amma bu transformasiyanın əsas və çox sonralar dərk edəcəyimiz bir həqiqətə dayandığı o axşam bəlli idi. Millət özünün Novruz kimi ən gözəl, ən doğma və ən əsas bayramına yenidən qovuşurdu və o milli obrazın daşıyıcısı kimi ali missiya da Aygün Kazımovanın bəxtinə biçilmişdi.

Deyilənlərə görə o hadisədən bir neçə gün sonra Novruz şənliyinin Dövlət televiziyasında belə təntənəli və al-əlvan təqdimatını sovet ideoloji prinsiplərinə zidd hesab edənlər respublikanın kommunist partiyasının ideoloji işlər üzrə katibi Həsən Həsənova şikayət məktubları ünvanlayırlar. Paradoks isə onda idi ki, bütün bu şikayətlərə baxmayaraq H.Həsənov o konsertin təkrar efirə verilməsinə şəxsən göstəriş verir.

Söz yox ki, milli mahnı janrımızda bahar, yaz, bayram və s mövzulu nəğmələr olsa da, peşəkar bəstəkarlar sırf Novruz mövzusuna və konkret olaraq bu bayrama həsr olunan nəğmələr yaratmamışlar. Bunun bir səbəbi həm də o idi ki, Sovet imperiyasının dəmir sərhədləri kimi dəmir də qanunları vardı. 15 beynəlmiləl respublikalar ittifaqında milli identiklik, özünəməxsus dəyərlər qabardıla bilməzdi. Tarixinə, soy kökünə, ənənələrinə qayıdış millətçilik damğası ilə cəzalandırıla bilərdi. O səbəbdəndir ki, Novruz şənliyinin təmtəraqlı qeyd olunması da uzun illər məmləkətdə yasaqlandı. Hətta 1967-ci ildə cəsarətli vətən oğullarının təşəbbüsü ilə bu bayramın el-oba ilə birlikdə dövlət səviyyəsində qeyd edilməsi Moskvada neqativ rənglər aldı deyə, Novruz mövzusu 20 ilə yaxın yasaq edildi. Bunun məntiqi nəticəsi özünü mədəniyyətimizdə, xüsusilə musiqidə, mahnı janrında biruzə verdi. Yəqin bu səbəbdən mahnılarda novruzun tərənnümü qabarıq olmadı.

Məhz ona görə 1986-cı ildə Cahangir Novruzovun tamaşasında qan yaddaşımız bir daha oyandı, Novruz səhnədə canlandı, kosa və keçəl personajları müziklin əsas qəhrəmanlarına çevrilərək yenidən üzə çıxdılar. C. Quliyev sanki məqamını gözləyən o dəyərlərə musiqisi, R. Rövşən isə şeirlərilə nəfəs, can verdi. Birdən-birə mahnılarımızın sırasına rəngli yumurtaları, bəzənmiş xonçası ilə Novruzun ətrini, yazın nəfəsini bu qədər parlaq və realistik təsvir edən sazlı-avazlı, yallı ritmli, Şur məqamının ruhundan yoğrulmuş, əsil xalq nəğməsi meydana çıxdı. Bu nəğmə tək musiqi hadisəsi deyildi, həm də milli el bayramımız Novruzun təbliğində çox önəmli hadisə idi.

Bu mahnının sonrakı taleyi də çox qəribə inkişaf etdi. Baxmayaraq ki, ifaçı baxımından zəngin olmadı, yalnız Novruz bayramlarında yada düşdü, bununla belə xalqın hafizəsində möhkəm möhürləndi. Onilliklər sonra A. Kazımova karyerasının əvvəlində ona ən çox şöhrət qazandıran nəğməsinə bir daha qayıdıb onu müasirləşdirdi. Və yəqin ki, bundan doğal addım ola bilməzdi. Gənclərimiz A. Kazımova ifasından sonra bu mahnıya ehtiyyatla müraciət etməyə başladılar. Əslində bu, təqdirəlayiqdir. Çünki mahnının müəllifi C.Quliyevin həmişə dediyi kimi, mahnılar yalnız səsləndikcə yaşayır. Deməк ki, bu nəğmə də yaşamalı, yeni rənglərini, nəfəslərini qazanmalıdır.

Bu nəğmənin tarixçəsinin timsalında o nəticəyə gəlmək olar ki, onun taleyi başqa cür də ola bilərdi, Axundovun 1986-cı ildə səhnələşdirilən müziklindəki digər mahnılar kimi tarixə də qovuşardı, əgər müəllif zamanında cəsarətli, iddialı və uzaqgörən addım ataraq bu nəğməni meydana cıxarmasaydı. Tarix də göstərdi ki, bütün bunlar sən demə təsadüf deyildi, ola da bilməzdi. Əvvəla ona görə ki, o nəğməyə müəlliflər elə bir həyat enerjisi, elə bir potensial vermişdilər ki, bu nüvə, bu enerji hökmən partlamalı idi. İkinci və ən əsası isə o idi ki, bu nəğmə Novruza, yeni günün, təbiətin oyanışına həsr olunsa da, əslində onun semantik altmənası vardı və bu, əslində milli ruhumuzun oyanışı, keçmişimizə, qan yaddaşımıza və özümüzə qayıdışın təntənəsinəsi idi. İctimai-siyasi tariximizin ən ziddiyyətli, mürəkkəb lakin şərəfli dövrünün, azadlıq hərəkatının başlanmasına işarət idi. Odur ki, bu nəğmə tək Novruzun deyil, tariximizin ən mübarək və parlaq dövrünün də musiqi simvolu olaraq qalacaq.

## Ədəbiyyat siyahısı

1. Cavançir Quliyev “Divan” 2018
2. Əliyeva Ə. “M.F. Axundov və teatr” 1966, Bakı, EA-nın nəşri
3. Ənvər Mete “O torpağın evladları” 2006, Nurlan nəşriyyatı
4. İlham Rəhimli “Şəki teatrı” 2016, Bakı
5. İlham Rəhimli “Azərbaycan teatr tarixi” 2005, Çaşıoğlu
6. Səlimxanov Cahangir “Cavanşir Quliyev” //Musiqi dünyası,1999, N1
7. Zümrüd Axundova Dadaşzadə “Cavanşir Quliyev: Total musiqi axtarışında” //Musiqi dünyası 2019, N3

İnternet resurslar

8. “Bir mahnının tarixçəsi” “Novruz gəlib” 2025, İctimai tv. https://www.youtube.com/watch?V=4baz5jq59wq&t=1903s

**Shukurova Konul Arif**

## About the Standards of the Azerbaijani Song Genre During the Independence Period: “Novruz Gyalib” (Novruz Has Come)

**Summary**: This study analyzes one of the most famous works, which played a unique role in the formation of new trends and musical styles in the pop music of the Azerbaijani song heritage at the end of the last century and at the beginning of the period of independence, which undoubtedly set the direction for the further development of the pop music genre. The song “Novruz Gyalib”, written by Javanshir Guliev and Ramiz Rovshan, most successfully represents our national traditions and spiritual symbols personifying the national holiday of Novruz in the modern song genre. Not only the musical merits and artistic qualities of this sample are considered, but also its influence on national and spiritual consciousness, its connection with the socio-political processes of that time, its resonance in society and its influence on the socio-cultural life of next generations.

The form and content of this song are also considered a logical continuation of the songwriting career of Javanshir Guliyev, which began in the 1970s. This song demonstrates the successful return of the Novruz theme, banned by Soviet ideology in previous decades, to the public consciousness and national pop culture. The artistic and vocal qualities and image of its lead singer, Aygun Kazimova, are also noted for their undeniable role in the subsequent success of this work.

**Key words:** Javanshir Guliyev, Novruz, song, theater, Aygun Kazimova

**Шукюрова Кёнуль Ариф кызы**

## О стандартах Азербайджанского песенного жанра в период независимости: «Новруз гялиб»

**Резюме:** В данном исследовании анализируется одно из самых известных произведений, сыгравшее исключительную роль в становлении новых тенденций и музыкальных стилей в эстрадной музыке азербайджанского песенного наследия в конце прошлого века и в начале периода независимости, безусловно задавшее направление дальнейшему развитию жанра эстрадной музыки. Песня «Новруз гялиб», написанная Джаванширом Кулиевым и Рамизом Ровшаном, наиболее удачно

представляет наши национальные традиции и духовные символы, олицетворяющие национальный праздник Новруз, в современном песенном жанре. Рассматриваются не только музыкальные достоинства и художественные качества этого образца, но и его влияние на национальное и духовное сознание, его связь с общественно-политическими процессами того времени, его резонанс в обществе и его влияние на социально-культурную жизнь последующих поколений.

Также, форма и содержание этой песни оценивается как логическое продолжение песенной деятельности автора Джаваншира Кулиева, начавшейся еще в 70-х годах прошлого века. На примере этой песни демонстрируется успешное возвращение темы Новруза, запрещённой советской идеологией предыдущие десятилетия, в массовое сознание и в национальную поп-культуру народа.  А также отмечается безусловная роль художественных, вокальных качеств и образ её главной исполнительницы Айгюн Кязимовой, в последующем успехе этого образца.

**Ключевые слова:** Джаваншир Гулиев, Новруз, песня, театр, Айгюн Кязимова

Məqalənin redaksiyaya daxilolma tarixi: 16.10.2025
Məqalənin çapa qəbul olunma tarixi: 04.11.2025